# MİLLETLERARASI ANDLAŞMA

**Karar Sayısı: 7174**

4 Kasım 2022 tarihinde Bakü'de imzalanan ekli "Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti Arasında Bitki Koruma ve Karantinası Alanında İşbirliği Anlaşması"nın onaylanmasına, 244 sayılı Kanunun 5 inci maddesi ile 9 sayılı Cumhurbaşkanlığı Kararnamesinin 2 nci ve 3 üncü maddeleri gereğince karar verilmiştir.

25 Nisan 2023

**Recep Tayyip ERDOĞAN**
CUMHURBAŞKANI

# TÜRKİYE CUMHURİYETİ HÜKÜMETİ
# İLE
# AZERBAYCAN CUMHURİYETİ HÜKÜMETİ
# ARASINDA
# BİTKİ KORUMA VE KARANTİNASI ALANINDA İŞBİRLİĞİ ANLAŞMASI

Türkiye Cumhuriyeti Hükümeti ve Azerbaycan Cumhuriyeti Hükümeti (bundan böyle "Taraflar" olarak anılacaklardır),

İki ülke arasında bitki koruma ve karantina alanlarındaki işbirliğini geliştirmek ve bitki ile bitkisel ürünlerinin karşılıklı ticaret ve mübadelesinin kolaylaştırılmasını sağlamak için,

Aşağıdaki konularda mutabık kalmışlardır:

## MADDE 1
## AMAÇ

Taraflar, iki ülke arasında ticari ilişkilerin geliştirilmesi ve ticari sözleşmelerin uygulanması sırasında Taraf ülkelerin topraklarında karantina zararlılarının yayılmasının önlenmesi amacıyla işbirliğini temin ederek,
Bitki koruma ve karantina alanında işbirliğinin devam ettirilmesini, sürdürülmesini ve taraf devletler tarafından alınacak önlemlerin uygulanmasını ve koordinasyonunu sağlayacaklardır.

## MADDE 2
## YETKİLİ MAKAMLAR

Tarafların, işbu Anlaşma hükümlerinin uygulanmasından sorumlu yetkili makamları şunlardır:

Türkiye Cumhuriyeti Hükümeti adına Tarım ve Orman Bakanlığı ,

Azerbaycan Cumhuriyeti Hükümeti adına Gıda Güvenliği Ajansı ,

Yetkili makamlarda değişiklik olması durumunda, Taraflar birbirlerine diplomatik kanallardan yazılı bildirimde bulunacaklardır.

## MADDE 3
## TANIMLAR

İşbu Anlaşmada kullanılan terimlerin anlamları şunlardır:

**"Bitkiler"** – Tohumlar ve genetik malzeme de dahil canlı bitkiler ve bunların parçaları;

**"Bitkisel ürünler"** – (Tahılları da içeren) İşlenmemiş bitkisel kökenli ürünler yada doğal özellikleri veya işlenme usulleri gereğince zararlıların yerleşme ve yayılma riskini ortaya çıkarabilen bitki kaynaklı ürünler;
**"Zararlı"** – Bitki veya bitkisel ürünlere zarar veren bitki, hayvan veya patojenik ajanların herhangi bir tür, suş ya da biyotipi;
**"Karantina zararlısı"** –Bir bölgede henüz mevcut olmayan ya da mevcut olup, geniş çaplı olarak yayılmamış olan ve resmi olarak kontrol altında tutulan ve çevre, bölge ekonomisi ve halk sağlığı açısından potansiyel bir tehdit oluşturan zararlı;
**"Karantinaya tabi malzeme"** – Zararlıların konaklamasına ve yayılmasına yol açabilecek nitelikte ve özellikle uluslararası sevkiyat söz konusu olduğunda, bitki sağlığı tedbirlerinin alınması gerektirdiği düşünülen her tür bitki, bitkisel ürün, depolama yeri, paketleme, nakil, muhafaza araçları, toprak ve her türlü organizma, nesne yada malzeme;
**"Bitki sağlığı (yeniden ihracat bitki sağlığı) sertifikası"** – Uluslararası Bitki Koruma Sözleşmesi uyarınca geliştirilmiş ve onaylanmış bitki ve bitkisel ürünlerin sağlık durumu ile ilgili resmi belge.

## MADDE 4
## KAPSAMI

İşbu Anlaşmanın hükümleri, hediye veya bilimsel amaçlı olarak alınanların yanı sıra, diplomatik, konsüler ve diğer misyonlara yönelik olanlar da dahil olmak üzere tüm karantinaya tabi malzemeye uygulanır.

## MADDE 5
## BİTKİ SAĞLIĞI SERTİFİKALARI

İthal edilen karantinaya tabi malzemelerin her bir sevkiyatına, ihracatçı ülkenin ilgili makamı tarafından hazırlanan bitki sağlığı veya yeniden ihracat bitki sağlığı sertifikası eşlik etmelidir.

Bitki sağlığı veya yeniden ihracat bitki sağlığı sertifikalarının örnekleri, Tarafların yetkili makamları tarafından teati edilecektir.

Tarafların yetkili makamları, kendi devletlerinin ulusal mevzuatlarına uygun olarak karantinaya tabi malzemelerin her bir sevkiyatı için bitki sağlığı durumu ile ilgili ek koşullar (dezenfestasyon, yeniden paketleme, yıkama, hermetikite vb.) koyma hakkına sahip olacaktır.

Taraflar, bitki sağlığı sertifikası örneklerinin eşitlik ilkesi temelinde karşılıklı değişimini ve tanınmasını ve onlarda olan değişikliklerle ilgili bilgi verilmesini sağlayacaklardır.

## MADDE 6
## İŞBİRLİĞİ ALANLARI

Taraflar, bitki koruma ve karantinası alanında etkin işbirliğinin sağlanması maksadıyla kendi devletlerinin ulusal mevzuatlarına ve uluslararası standartlara uygun olarak aşağıdaki alanlarda işbirliği yapacaklardır.

a) Karantinaya tabi malzemelerin ithalatı, ihracatı, yeniden ihracatı ve geçişi sırasında, karantina zararlılarının Taraf devletin topraklarına girmesini önlemek amacıyla gerekli önlemleri almak,
b) Tarafların ülke sınırları içinde bitki koruma ve karantinası tedbirlerini düzenleyen mevzuatların teatisini gerçekleştirmek,
c) Tarafların ülke sınırları içinde karantina zararlılarının ve yayılmalarının kaydı hakkında bilgi paylaşımında bulunmak,
d) Bitki koruma ve karantinası konusunda bilimsel araştırmalar hakkında bilgi paylaşımında bulunmak,
e) Karantinaya tabi malzemelerin üretim, tedarik ve depolama yerlerinde bitki sağlığı denetimlerinin yapılması,
f) Bitki koruma ve karantinası alanında bilimsel yenilik ve ilgili tecrübe paylaşımının teşvik edilmesi amacıyla, karşılıklı uzman ziyaretleri yapılması,
g) Bitki koruma ve karantinası tedbirlerinin uygulanması ve karantina zararlılarının kayıt altına alınması, yerlerinin tespit edilmesi, yayılmasının önlenmesi ve yok edilmesi konularında karşılıklı bilimsel, teknik ve diğer her türden yardımın sağlanması,
h) Bitki sağlığı, yeniden ihracat bitki sağlığı sertifikaları ya da sertifikada yer alan bilgilerde şüpheli durumun ortaya çıkması halinde, diğer Tarafın resmi talebi üzerine sertifikayı veren ilgili yetkili makam tarafından ilave veya kesin bilgilerin verilmesini sağlamak,
i) Karşılıklı olarak kabul edilen karantinaya tabi malzemelerin ve karantina zararlılarının listelerinin paylaşılması,
j) Tarafların devletlerinin ulusal mevzuatına göre, bitki sağlığı kontrolüne tabi olan ürünlerin ithalatı ve ihracatının yasaklanması yada kısıtlanması hakkında önceden bilgi paylaşımının yapılması.

## MADDE 7
## KARANTİNAYA TABİ MALZEMELERİN NAKLİYESİ

Karantinaya tabi malzemelerin nakliyesi esnasında, paketleme malzemesinin plastik, kumaş, kâğıt, talaş veya rende talaşı gibi malzemeden yapılmış olması durumunda, Taraflar, paketleme malzemesinin zararlı organizmalardan ve topraktan temizlenmesini sağlayacaklardır.

Kuru ot, saman, hasır, yaprak ve benzer bitki kökenli malzemeler, Tarafların önceden mutabakatı olmadan kullanılamayacaktır.

Karantinaya tabi malzemelerin taşınmasında kullanılan nakliyat araçları, ilgili Tarafça temizlenmeli ve gerektiğinde zararsız hale getirilmelidir.

Karantinaya tabi malzemelerin geçişi, transit için kullanılan Taraf devletin, kendi ulusal mevzuatına göre yapılacaktır.

## MADDE 8
## KARANTİNAYA TABİ MALZEMELERİN İHRACATI, İTHALATI VE TRANSİT GEÇİŞİ

Karantinaya tabi malzemelerin ihracatı, ithalatı ve transit geçişi, Tarafların devletlerinin ulusal mevzuatı ile tanımlanan devlet sınır geçiş noktaları tarafından gerçekleştirilecektir.

Karantinaya tabi malzemelerin ithalatı ve ihracatı sırasında kontrol edilmesi amacıyla, Tarafların ulusal mevzuatlarına göre gerekli önlemler alınacaktır.

Taraflar, karantinaya tabi malzemelerin ithalat, ihracat ve nakli sırasında kendi devletlerinin ulusal mevzuatlarına uygun olarak kabul edilmiş olan bitki sağlığı yönetmeliklerine uymakla yükümlü olacaklardır.

## MADDE 9
## MASRAFLAR

Karantinaya tabi malzemelerin kontrol ve belge masrafları, mal sahibi tarafından ithalatın yapıldığı Taraf devletin ulusal mevzuatına göre karşılanacaktır.

## MADDE 10
## KONTROL ÖNLEMLERİ

Bitki sağlığı kontrolü sırasında, karantina zararlılarının tespit edilmesi durumunda, ithalatçı Taraf enfeksiyonu ortadan kaldırmak, enfekte olan malları etkisiz hale getirmek veya ihracatçı Tarafa iade etmek için önlemler alma hakkına sahip olacaktır. İthalatçı taraf aynı zamanda karşı Tarafı, alınan önlemler ve bunların nedenleri hakkında bilgilendirecektir.

Karantinaya tabi malzemeler, bitki sağlığı veya tekrar ihraç bitki sağlığı sertifikaları ile birlikte bulunmadığı takdirde iade edilecektir. Sevkiyatın geri gönderilmesi mümkün olmadığı durumlarda, yetkili makamların kararına istinaden, Tarafların devletlerinin ulusal mevzuatlarına ve ulusal ve uluslararası bitki sağlığı standarlarına göre zararsız hale getirilecek, işlenecek veya imha edilecektir.

Her durumda, Taraflar Bitki Sağlığı Önlemlerine Yönelik Uluslararası Standartların gereklerine uygun olarak tutarsızlıklar hakkında bildirimde bulunacaktır.

## MADDE 11
## ÇALIŞMA TOPLANTILARI

Taraflar, işbu Anlaşma hükümlerinin uygulanması kapsamında gerektiğinde en az iki yılda bir olmak üzere, Taraf devletlerden birinin topraklarında veya dijital ortamda çevrimiçi çalışma toplantıları düzenleyebilir.

Toplantıların yeri, tarihi ve gündemi Tarafların yetkili makamları tarafından belirlenir.

Toplantıların organizasyon giderleri, ev sahibi Tarafın yetkili makamları tarafından karşılanacaktır. Her bir Taraf kendi ulaşım ve günlük giderlerini ödeyecektir.

## MADDE 12
## ANLAŞMAZLIKLARIN ÇÖZÜMÜ

İşbu Anlaşmanın hükümlerinin yorumlanmasından veya uygulanmasından doğan herhangi bir anlaşmazlık, Taraflar arasında yapılacak müzakereler ve istişareler yoluyla dostane biçimde çözülecektir.

## MADDE 13
## DİĞER ULUSLARARASI ANLAŞMALARDAN DOĞAN HAKLAR VE YÜKÜMLÜLÜKLER

İşbu Anlaşma hükümleri, Taraf devletlerin taraf oldukları diğer uluslararası anlaşmalardan doğan hak ve yükümlülüklerini etkilemeyecektir.

## MADDE 14
## DEĞİŞİKLİKLER

İşbu Anlaşmaya, Tarafların karşılıklı yazılı rızası ile değişiklikler yapılabilir. Yapılan değişiklikler, işbu Anlaşmanın ayrılmaz bir parçasını oluşturacak ve 15. Maddenin hükümlerine uygun olarak yürürlüğe girecek olan ayrı protokoller şeklinde resmileştirilecektir.

## MADDE 15
## YÜRÜRLÜĞE GİRİŞ, SÜRE VE FESİH

İşbu Anlaşma, Tarafların, bu Anlaşmanın yürürlüğe girmesi için gerekli iç yasal süreci tamamladıklarını birbirlerine diplomatik yollarla bildirdikleri son yazılı bildirimin alındığı tarihte yürürlüğe girecektir.

İşbu Anlaşma süresiz olarak yürürlükte kalacaktır. Taraflardan biri, bu Anlaşmayı sona erdirme niyetini diplomatik kanallarla yazılı olarak herhangi bir zamanda diğer Tarafa bildirebilir. Fesih, böyle bir bildirimin alınmasından 6 (altı) ay sonra yürürlüğe girecektir.

İşbu Anlaşmanın feshi, Taraflarca aksi kararlaştırılmadığı sürece, işbu Anlaşma gereğince başlatılan proje ve programların uygulanmasını tamamlanmalarına kadar etkilemeyecektir.

İşbu Anlaşmanın yürürlüğe girmesi ile, 30 Haziran 2012 tarihinde Bakü'de imzalanmış olan "Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti Arasında Bitki Koruma ve Karantina Alanında İşbirliğine ilişkin Anlaşma" yürürlükten kaldırılacaktır.

İşbu Anlaşma, 04 Kasım 2022 tarihinde, Bakü'de, Türkçe ve Azerbaycan dillerinde, 2 (iki) asıl nüsha halinde, bütün metinler eşit derecede geçerli olmak üzere imzalanmıştır.

| | |
|---|---|
| **TÜRKİYE CUMHURİYETİ** | **AZERBAYCAN CUMHURİYETİ** |
| **HÜKÜMETİ ADINA** | **HÜKÜMETİ ADINA** |
| İbrahim YUMAKLI | Qoşqar TEHMEZLİ |
| Tarım ve Orman Bakan Yardımcısı | Gıda Güvenliği Ajansı Başkanı |

# TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA BİTKİ MÜHAFİZƏSİ VƏ KARANTİNİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti (bundan sonra "Tərəflər" adlandırılacaqlar),

iki ölkə arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlığı inkişaf etdirmək, bitki və bitkiçilik məhsullarının qarşılıqlı ticarət və mübadiləsinin asanlaşdırılmasını təmin etmək üçün,

aşağıdakılar barədə razılığa gəldilər:

## MADDƏ 1
## MƏQSƏD

Tərəflər iki dövlət arasında ticarət əlaqələrinin inkişafı və ticarət razılaşmalarının icrası zamanı Tərəflərin dövlətlərinin ərazilərində karantin tətbiq edilən zərərli orqanizmlərin yayılmasının qarşısını almaq üçün əməkdaşlıq etməklə,

bitki mühafizəsi və karantini sahəsində əməkdaşlığın davam etdirilməsini və fasiləsizliyini, Tərəflərin dövlətləri tərəfindən həyata keçirilən tədbirlərin icrasını və əlaqələndirilməsini təmin edirlər.

## MADDƏ 2
## SƏLAHİYYƏTLİ QURUMLAR

Bu Sazişin müddəalarının həyata keçirilməsi üçün Tərəflərin səlahiyyətli qurumları aşağıdakılardır:

Türkiyə Respublikası Hökuməti tərəfindən – Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi;

Azərbaycan Respublikası Hökuməti tərəfindən – Qida Təhlükəsizliyi Agentliyi.

Səlahiyyətli qurumlarda dəyişiklik olduğu təqdirdə, Tərəflər bir-birini diplomatik kanallar vasitəsilə yazılı şəkildə məlumatlandırırlar.

## MADDƏ 3
## ANLAYIŞLAR

Bu Sazişdə istifadə edilən terminlər aşağıdakı mənaları daşıyır:

**"bitkilər"** – toxumlar və genetik material da daxil olmaqla, canlı bitkilər və onların hissələri;

**"bitkiçilik məhsulları"** – dən də daxil olmaqla, emal olunmamış bitki mənşəli materiallar, habelə öz təbiətinə və ya emal üsuluna görə zərərli orqanizmlərin məskunlaşması və yayılması riskini yarada bilən ilkin emal olunmuş bitki mənşəli məhsullar;

**"zərərli orqanizm"** – bitki və bitkiçilik məhsullarına zərər vuran bitkilərin, heyvanların və ya xəstəlik törədən mikroorqanizmlərin hər hansı növü, növün dəyişmiş forması, yaxud bioloji tipi;

**"karantin tətbiq edilən zərərli orqanizm"** – ərazidə hələlik mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış və rəsmi mübarizə obyektinə çevrilmiş, ətraf mühitə, ərazinin iqtisadiyyatına və əhalinin sağlamlığına potensial təhlükə yaradan zərərli orqanizm;

**"karantin nəzarətində olan material"** – zərərli orqanizmlərin məskunlaşmasına (gizlənməsinə) və yayılmasına şərait yaradan, xüsusilə beynəlxalq yükdaşımalar zamanı fitosanitar tədbirlərin aparılmasını tələb edən bitki və bitkiçilik məhsulları, onların saxlanma yeri, qablaşdırma materialı, nəqliyyat vasitələri, torpaq və hər hansı digər orqanizm, obyekt, yük.

**"fitosanitar (təkrar-ixrac fitosanitar) sertifikatı"** – bitki və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti barədə "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyaya uyğun olaraq nümunəvi forma əsasında hazırlanmış və təsdiq olunmuş rəsmi sənəd.

## MADDƏ 4
## ƏHATƏ DAİRƏSİ

Bu Sazişin müddəaları bütün, o cümlədən hədiyyə və ya elmi məqsədlər üçün daxil olan, həmçinin diplomatik, konsulluq və digər nümayəndəliklər üçün nəzərdə tutulmuş karantin nəzarətində olan materiallara şamil edilir.

## MADDƏ 5
## FİTOSANİTAR SERTİFİKATLAR

İdxal edilən karantin nəzarətində olan materialların hər göndərilən partiyası ixrac edən ölkənin müvafiq səlahiyyətli qurumu tərəfindən verilən fitosanitar və ya təkrar-ixrac fitosanitar sertifikatı ilə müşayiət olunmalıdır.

Fitosanitar və ya təkrar-ixrac fitosanitar sertifikatların nümunələri Tərəflərin səlahiyyətli qurumları tərəfindən mübadilə edilir.

Tərəflərin səlahiyyətli qurumları öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq karantin nəzarətində olan materialların hər bir göndərilən partiyasının fitosanitar vəziyyətinə dair əlavə şərtlər irəli sürmək (zərərsizləşdirmək, yenidən qablaşdırma, yuyulma, germetiklik və s.) hüququna malikdir.

Tərəflər fitosanitar sertifikatların nümunələrinin ekvivalentlik prinsipinə uyğun olaraq qarşılıqlı mübadiləsini, tanınmasını və onlarda baş verən dəyişikliklər barədə məlumat verilməsini təmin edəcəklər.

## MADDƏ 6
## ƏMƏKDAŞLIQ SAHƏLƏRİ

Tərəflər bitki mühafizəsi və karantini sahəsində səmərəli əməkdaşlığı təmin etmək məqsədilə öz dövlətlərinin milli qanunvericiliyinə və beynəlxalq standartlara uyğun olaraq aşağıdakı sahələrdə əməkdaşlıq edəcəklər:

a) karantin nəzarətində olan materialların idxalı, ixracı, təkrar ixracı və tranziti zamanı qarşı Tərəfin dövlətinin ərazisinə karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının qarşısını almaq üçün zəruri tədbirlərin görülməsi,

b) Tərəflərin dövlətlərinin ərazilərində bitki mühafizəsi və karantini tədbirlərini tənzimləyən qanunvericilik aktlarının mübadiləsi,

c) Tərəflərin dövlətlərinin ərazilərində karantin tətbiq edilən zərərli orqanizmlərin və onların yayılmasının qeydə alınması barədə məlumat mübadiləsinin aparılması,

d) bitki mühafizəsi və karantini sahəsində elmi tədqiqatlar barədə məlumat mübadiləsinin aparılması,

e) karantin nəzarətində olan materialların istehsal, tədarük və saxlanma yerlərində fitosanitar yoxlamaların aparılması,

f) bitki mühafizəsi və karantini sahəsində elmi innovasiyalar və müvafiq təcrübə mübadiləsinin təşviqi məqsədilə mütəxəssislərin qarşılıqlı səfərlərinin həyata keçirilməsi,

g) bitki mühafizəsi və karantini üzrə tədbirlərin həyata keçirilməsi, karantin tətbiq edilən zərərli orqanizmlərin qeydə alınması, yerlərinin müəyyən olunması, lokallaşdırılması və məhv edilməsi üzrə qarşılıqlı elmi, texniki və digər yardımlar göstərilməsi,

h) fitosanitar və ya təkrar-ixrac fitosanitar sertifikatı və ya sertifikata daxil edilmiş məlumatlar barədə şübhəli hallar yarandıqda, digər Tərəfin rəsmi sorğusu əsasında, sertifikatı verən müvafiq səlahiyyətli qurum tərəfindən əlavə və ya dəqiqləşdirilmiş məlumatın təqdim edilməsinin təmin edilməsi,

i) qarşılıqlı razılaşdırılmış karantin nəzarətində olan materialların və karantin tətbiq edilən zərərli orqanizmlərin siyahılarının mübadilə edilməsi,

j) Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə əsasən fitosanitar nəzarətində olan məhsulların idxalı və ixracı ilə bağlı qadağalar və məhdudiyyətlər barədə əvvəlcədən məlumat mübadiləsinin aparılması.

## MADDƏ 7
## KARANTİN NƏZARƏTİNDƏ OLAN MATERİALLARIN DAŞINMASI

Karantin nəzarətində olan materialların daşınması zamanı qablaşdırma materialı plastik, parça, kağız, ağac yonqarı və ya ağac kəpəyi kimi materialdan ibarət olduğu hallarda, Tərəflər qablaşdırma materialının zərərli orqanizmlərdən və torpaqdan təmizlənməsini təmin edirlər.

Quru ot, küləş, püfə, yarpaq və oxşar bitki mənşəli materiallar Tərəflərin əvvəlcədən razılığı olmadan istifadə edilə bilməz.

Karantin nəzarətində olan materialların daşınması üçün istifadə olunan nəqliyyat vasitəsi müvafiq Tərəf tərəfindən təmizlənməli və ehtiyac olduqda zərərsizləşdirilməlidir.

Karantin nəzarətində olan materialların tranziti tranzit üçün istifadə olunan Tərəf dövlətin milli qanunvericiliyinə uyğun həyata keçirilir.

## MADDƏ 8
## KARANTİN NƏZARƏTİNDƏ OLAN MATERİALLARIN İXRACI, İDXALI VƏ TRANZİTİ

Karantin nəzarətində olan materialların ixracı, idxalı və tranziti Tərəflərin dövlətlərinin milli qanunvericiliyi ilə müəyyən edilmiş dövlət sərhəd-buraxılış məntəqələri vasitəsilə həyata keçirilir.

Karantin nəzarətində olan materialların idxalı və ixracı zamanı Tərəflərin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq onların yoxlanılması üçün zəruri tədbirlər həyata keçirilir.

Tərəflər karantin nəzarətində olan materialların idxalı, ixracı və tranziti zamanı özlərinin dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq qəbul edilmiş fitosanitar qaydalara riayət etməyə cavabdehdirlər.

## MADDƏ 9
## XƏRCLƏR

Karantin nəzarətində olan materialların yoxlanılması və sənədləşdirilməsi xərcləri, idxal edən Tərəfin dövlətinin milli qanunvericiliyinə uyğun olaraq, malın sahibi tərəfindən ödənilir.

## MADDƏ 10
## NƏZARƏT TƏDBİRLƏRİ

Fitosanitar nəzarəti zamanı karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildiyi təqdirdə, idxalçı Tərəf yoluxmanı aradan qaldırmaq, yoluxmuş malları zərərsizləşdirmək və ya ixrac edən Tərəfə geri qaytarmaq üçün tədbirlər həyata keçirmək hüququna malikdir. Bununla yanaşı, idxal edən Tərəf görülmüş tədbirlər və səbəbləri barədə digər Tərəfə məlumat verməlidir.

Karantin nəzarətində olan materiallar fitosanitar və ya təkrar ixrac fitosanitar sertifikatlarla müşayiət olunmadığı təqdirdə geri qaytarılmalıdır. Yüklərin geri qaytarılması mümkün olmadıqda onlar səlahiyyətli qurumların qərarı əsasında Tərəflərin dövlətlərinin milli qanunvericiliklərinə, milli və beynəlxalq fitosanitar standartlara uyğun olaraq zərərsizləşdirilir, emal edilir və ya məhv edilir.

İstənilən halda, Tərəflər Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartlara münasibətdə mövcud uyğunsuzluqlar barədə xəbərdarlıqlar göndərməlidirlər.

## MADDƏ 11
## İŞÇİ GÖRÜŞLƏR

Tərəflər bu Sazişin müddəalarının həyata keçirilməsi ilə əlaqədar zərurət yarandıqda iki ildə bir dəfədən az olmamaqla Tərəflərdən birinin dövlətinin ərazisində, eləcə də onlayn rəqəmsal platformadan istifadə edərək virtual formatda işçi görüşlər təşkil edə bilərlər.

Görüşlərin yeri, tarixi və gündəliyi Tərəflərin səlahiyyətli qurumları tərəfindən müəyyən edilir.

Görüşlərin təşkilati xərcləri qəbul edən Tərəfin səlahiyyətli qurumları tərəfindən ödənilir. Hər bir Tərəf özünün nəqliyyat və gündəlik xərclərini ödəyir.

## MADDƏ 12
## FİKİR AYRILIQLARININ HƏLLİ

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə bağlı hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və məsləhətləşmələr vasitəsilə, dostcasına həll edilir.

## MADDƏ 13
## DİGƏR BEYNƏLXALQ MÜQAVİLƏLƏRDƏN İRƏLİ GƏLƏN HÜQUQ VƏ ÖHDƏLİKLƏR

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin tərəf olduğu digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

## MADDƏ 14
## DƏYİŞİKLİKLƏR

Bu Sazişə Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında dəyişikliklər edilə bilər. Belə dəyişikliklər bu Sazişin ayrılmaz tərkib hissəsi olan və onun 15-ci maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilir.

## MADDƏ 15
## QÜVVƏYƏMİNMƏ, MÜDDƏT VƏ LƏĞVETMƏ

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin bir-birilərinə göndərdikləri sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş qeyri-müəyyən müddətə qüvvədə qalır. Tərəflərdən biri istənilən vaxt digər Tərəfə bu Sazişin ləğv edilməsi niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı olaraq məlumat verə bilər. Ləğvetmə belə bildirişin alınmasından 6 (altı) ay sonra qüvvəyə minir.

Bu Sazişin ləğv edilməsi, Tərəflər arasında başqa cür razılaşdırılmadığı təqdirdə, bu Sazişə əsasən başlanılmış layihələrin və proqramların həyata keçirilməsinə onlar tamamlanana qədər təsir göstərmir.

Bu Sazişin qüvvəyə minməsi ilə 30 iyun 2012-ci il tarixində Bakı şəhərində imzalanmış "Türkiyə Respublikası Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında bitki mühafizəsi və karantini sahəsində əməkdaşlıq haqqında Saziş" qüvvədən düşür.

Bu Saziş Bakı şəhərində, 2022-ci il 4 noyabr tarixində, Türk və Azərbaycan dillərində, hər iki mətn bərabər autentik olmaqla, 2 (iki) əsl nüsxədə imzalanmışdır.

| TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN | AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN |
| --- | --- |
| İbrahim YUMAKLI | Qoşqar TƏHMƏZLİ |
| Kənd Təsərrüfatı və Meşəçilik nazir müavini | Qida Təhlükəsizliyi Agentliyi sədri |